# Xocalı faciəsini dünyaya tanıdaq

*Xocalı adı gələndə insanlığa qarşı amansızlığın, vəhşiliyin sübutu olan faciə canlanır gözlərimiz önündə. Əlləri insan qanına batmış, vəhşiləşmiş daşnakların obrazını heç cür cızmaq olmur, söz sanki acizdir bu qəddarların "sima"sını ifadə etməyə.*




Onların əsl simasını göstərmək üçün törətdikləri qətliamları, terrorları və soyqırımlarını dünyaya göstərmək çox vacibdir. Təbii ki, bu istiqamətdə son illər həyata keçirilən rəsmi tədbirlərlə yanaşı, ictimaiyyətin, eləcə də bəzi qeyri-hökumət təşkilatlarının da fəaliyyəti təqdir olunmalıdır. Lakin erməni vandalizminin dünyada ifşası üçün bunlar kifayət etmir. Dünyanı saxta, qondarma "erməni soyqırımı" ilə məharətlə aldadıb özlərini məzlum xalq obrazında təqdim edən daşnakların təbliğatı kampaniya şəklindən çıxaraq, ümumerməni lobbisinin əsas vəzifəsinə çevrilib. Təəssüf ki, bizim QHT-lər Xocalı qətliamının geniş formada təbliğinə nail ola bilməyiblər. Lakin nə yaxşı ki, bəzi təşkilatlar bu işdə fəaldırlar. "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi də bu mənada nümunə göstəriləcək qədər fəaliyyətlə məşğuldur. Birliyin sədri Şamil Sabiroğlu (Ələkbərli) ilə söhbətimiz də məhz bu mövzuya - Xocalı soyqırımının təbliği vəziyyətinə həsr edildi.









O, birliyin fəaliyyət göstərdiyi 8 il ərzində təbliğatla bağlı görülən işlərə qısa nəzər salaraq bildirdi ki, düz 24 il öncə, Xocalıda baş verən qətliamı "Səhər" qəzeti vasitəsilə Azərbaycan xalqına və dünyaya çatdırandan bu işlə məşğulam. O zaman qəzetin əməkdaşı Rizvan Hilaloğlu ilə yaratdığım əlaqə Xocalıda baş verənlərin dərcinə imkan yaratdı. Onda mətbuat üzərində senzura hökm sürürdü. Buna görə də televiziya və radio ya susdurulmuş, yaxud da əsl həqiqət xalqdan və dünya ictimaiyyətindən gizlədilmiş, faciənin miqyası, dərəcəsi, amansızlığı azaldılmışdı. "Səhər" qəzeti və onun baş redaktoru Məzahir Səhər isə bütün çətinliklərə, qorxu və hədələrə baxmayaraq, əsl həqiqəti dərc eləməyə özündə cəsarət tapmışdı.

Xocalıda gördüklərindən dəhşətə gələn birlik sədri qeyd etdiyi kimi, faciənin və soyqırımının dünya dövlətləri tərəfindən tanıdılmasında Azərbaycan dövləti ilə yanaşı, Heydər Əliyev Fondunun yürütdüyü siyasətin nəinki sinəsi dağlı xocalılılar, ümumiyyətlə, dünyaya səpələnən soydaşlarımız tərəfindən birmənalı şəkildə təqdir olunur və öz dəstəklərini əsirgəmirlər. "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin də əsas fəaliyyətinin bundan ibarət olmasını xatırladan həmsöhbətim bildirdi ki, ötən il qardaş Türkiyənin bir neçə regionunda keçirilən anım tədbirləri təbliğatın bir forması idi: "Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının İğdır Azərbaycan Evi Dərnəyi bu il də bir sıra tədbirlər keçirməyi nəzərdə tutub. Bu barədə məlumatı dərnəyin sədri Sərdar Ünsal bəy verib. Deyib ki, faciənin 24-cü ildönümü ilə bağlı tədbirlərdən biri İğdır liseylərinin şagirdləri arasında keçiriləcək. Bu məqsədlə rəhbərlik etdiyi qurum "Xocalı şəhidləri" adlı şeir, inşa, rəsm müsabiqəsi təşkil edir. Müsabiqə iştirakçısı olmaq istəyən məktəblilər fevralın 19-dək dərnəyə müraciət edə bilərlər. Hər nominasiya üzrə elan ediləcək 3 qalibin mükafatları fevralın 26-da təqdim olunacaq. Dərnəyin sədri həmin gün İğdırın Zübeydə Xanım Bulvarında Xocalı faciəsi ilə bağlı anım tədbirinin keçiriləcəyini də deyib".

Bu günlərdə ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ilə keçirilən görüşün də əsas məqsədi xalqımızın başına gətirilən faciələrin dərəcəsini və miqyasını səfirin nəzərinə çatdırmaq, erməni vandalizm siyasətinə son qoyulmasına dəstəklərini əsirgəməməyə çağırmaq olub: Görüşdə səfir Robert Sekuta ABŞ-Azərbaycan əlaqələrindən danışdı. O, bildirdi ki, dünyada terrorun pislənməsi, münaqişə zonalarında insanların soyqırımına məruz qalması birmənalı şəkildə mənfi qarşılanır. Bu istiqamətdə ABŞ səfirliyi olaraq, müxtəlif istiqamətlərdə görüşlər keçirilib, tədbirlər hazırlanıb. Görüşdə həmçinin 1992-ci il fevralın 26-da dinc əhalinin erməni terrorçuları tərəfindən güllələnən edilməsi önə çəkildi. Sovet Silahlı Qüvvələrinə məxsus 366-cı motoatıcı alayın birbaşa köməyi ilə baş tutan məlum soyqırımında həlak olanların xatirələrinin yad edilməsi üçün həyata keçirilən layihələr barədə məlumat verildi.

Təşkilat Xocalı soyqırımının tanıdılması və belə vəhşiliklərin qarşısının alınması istiqamətində təbliğatın auditoriyasını genişləndirmək üçün ABŞ-a səfər planı hazırlayıb. 2016-cı il sentyabr ayının ikinci ongünlüyünə salınmış səfərin baş tutması üçün səfirlikdən dəstək istənilib.

Görüşdə birliyin idarə heyətinin üzvü, dosent Yusif Savalan Xocalı sakini kimi atasının həmin müdhiş gecədə erməni vandalları tərəfindən vəhşicəsinə və amansızcasına qətlə yetirildiyini bildirdi: "Mənim 83 yaşlı atam Savalan Allahverdiyev Böyük Vətən müharibəsi illərində keçmiş Sovet Ordusu sıralarında xidmətə çağırıldı. Qanlı döyüşlərin birində alman faşistləri tərəfindən əsir götürüldü. Əsirlik həyatında onunla pis davranılmadı, düşərgədə qətlə yetirilmədi. Ancaq o, 83 yaşında, doğma yurdu Xocalıda erməni cəlladlarının əzablı işgəncəsi ilə şəhid edildi. Tək atam yox, o müdhiş gecədə Xocalı soyqırımı zamanı bacım Çiçək, bacım oğlu Əbülfət də erməni qaniçənlərinin gülləsinə tuş gəldilər".

Birliyin Binəqədi rayon şöbəsinin sədri Ayna Novruzova Xocalıda erməni terrorçularının törətdikləri vəhşiliklərin şahidi olduğunu göz yaşları və həyəcanla dilə gətirib: "O zaman 16 yaşım vardı. Erməni silahlı quldurları və onların havadarları tərəfindən Xocalı şəhər 2 saylı səkkizillik məktəbinə atılan mərmi nəticəsində məktəbimiz də darmadağın edildi. Dərslərimiz yarımçıq qaldı..."

Faciənin onu da əlilə çevirdiyini səfirin diqqətinə çatdıran A.Novruzova II dərəcəli əlil kimi yaşadığını bildirib.

Birliyin son üçillik fəaliyyəti daha diqqətçəkən olub. Təşkilatın artıq regionlarda da şöbələri fəaliyyət göstərməyə başlayıb ki, bu da qurumun qarşısına qoyduğu məqsədlərə nail olunmaqda mühüm hesab edilir. Maddi-texniki bazanın zəif olmasına baxmayaraq, birliyin bir neçə şəhər və rayon şöbəsində təşkil etdikləri tədbirlərin səviyyəsi xeyli yüksəlib. Belə regional şöbələrdən biri də 7 aydır Gəncədə fəaliyyət göstərir. Şöbəyə II dərəcəli müharibə əlili, Kosalar kənd həkim məntəqəsinin sədri Aqil Məmmdədov rəhbərlik edir. Bu ilin yanvar ayının 28-də birliyin Gəncə regional şöbəsi və "Şans" tibb mərkəzi nəcib təşəbbüslə çıxış edərək, şəhərin Hacı Məlik kəndi ərazisində əsasən Xocalı və Kəlbəcərdən olan, 23 il Hacıkənddə məskunlaşmış məcburi köçkünlər üçün yeni salınmış qəsəbədə əhaliyə pulsuz tibbi müayinə xidməti və imkansız ailələrin oğul övladları üçün sünnət mərasimi təşkil ediblər. Bundan ötrü "Şans" tibb mərkəzinin əməkdaşları səfərbər olunublar.

Azərbaycan Dillər Universitetinin bir qrup tələbəsi isə birliyin qonağı olub. Bəşəriyyətin belə dəhşətlərlə bir daha üzləşməməsi üçün bu soyqırımı aktının dünya ictimaiyyətinə daha geniş şəkildə və olduğu kimi çatdırılması da təşkilatın əsas vəzifəsidir. Görüşdə o da vurğulanıb ki, 2013 nəfərin iştirakı ilə Xocalı soyqırımına həsr olunmuş fləşmobun hazırlanması nəzərdə tutulub.

Universitetin tələbələrindən Zərintac Quliyeva, Gülrux Salmanova, Qızxanım Xəlilova və başqaları bugünkü gəncliyin qarşısında duran məsələlərdən danışaraq, təşkilatın tələbə-gənclər birliyinə üzv olmaq üçün ərizə ilə müraciət ediblər. Sonda maraqlı təkliflər səslənib: gənclər fləşmobda könüllü olaraq iştirak edəcəklərini bildiriblər.

Xırdalandakı "AAAF Park" İstirahət Mərkəzinin zalında "Xocalı soyqırımını dünyaya tanıdaq!" layihəsi çərçivəsində hazırlanacaq fləşmobun layihəsinin təqdimat mərasimi keçirilib. Fevralın 20-də nəzərdə tutulan həmin tədbirə dəstək verəcəyini bildirən Abşeron rayon Ağsaqqallar Şurasının sədri Nadir Ağayev insanları bu vacib kampaniyaya qoşulmağa çağırıb.

Bu il fevralın 20-də Bakının Xətai rayonundakı "Ana harayı" abidəsinin qarşısında 2000 nəfərdən artıq dinc sakinin iştirakı ilə keçiriləcək fləşmobun lentə alınaraq dünya xalqlarına çatdırılması nəzərdə tutulub.

Birliyin şöbə müdiri, Xocalıdan məcburi köçkün Ceyran Əzizova layihənin yüksək səviyyədə baş tutması üçün imkanlı şəxslərə, habelə idarə və müəssisə rəhbərlərinə müraciət edərək bildirib ki, fləşmobun videoyazısı beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmiş 12 xarici dilə tərcümə olunduqdan sonra dünyanın 100-dən çox ölkəsində, habelə respublikamızın yerli tele-radio kanallarında, saytlarda və sosial şəbəkələrdə yayımlanmasına dəstək verilsin.

Milli Məclisin deputatı Elman Məmmədov belə vacib layihənin hazırlıq prosesi üçün imkanları daxilində dəstək olacaqlarını bildirib. Azərbaycan Dillər Universitetinin professoru Məhəmməd Teymurlu, alman dili kafedrasının dosenti, şair-tərcüməçi Yusif Savalan, istedadlı müğənni Tacir Şahmalıoğlu, "Azərbaycan-İraq Mədəni Əlaqələri" İctimai Birliyinin sədri Tahirə Məmmədova, "Xankəndi Məcburi Köçkünlərə Dəstək" İctimai Birliyinin sədri Xatirə Vəliyeva və başqaları layihənin uğurlu alınması naminə dəstək göstərilməsini zəruri hesab ediblər.

Bir zamanlar xocalılıların əlləri qandallı, yaraları qanlı, harayları isə eşidilməz idi. Bu gün isə Xocalı faciəsinin adı nəinki Avropadan, Yaxın və Uzaq Şərqdəki minaqişələrə yanaşı çəkilir, həm də bəşəriyyəti bu haqsızlığa dözməməyə çağırışlar eşidilir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***